# "Salam, Şuşa" adlı tədbirdən

***18 mart 2022-ci ildə Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə yardımı ilə "İstedadları Tanıyaq və Tanıdaq " İctimai Birliyinin "Vətən müharibəsi qəhrəmanlarının övladları ilə mədəni tədbirlərin keçirilməsi" layihəsi çərçivəsində tədbir keçirildi. Tədbiri açıq elan edən birliyin sədri Vüsalə Qələndərli 2020-ci ilin sentyabrında başlayan 44 günlük Vətən müharibəsinin tariximizin ən şanlı səhifələrindən biri olduğunu xatırladaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan ordusunun böyük qəhrəmanlıq və şücaət göstərərək ərazi bütövlüyümüzü bərpa etdiyini vurğuladı. Daha sonra qonaqlar, şəhid ailələri, qazilər çıxış edib. Tədbir istedadlı gənclərin çıxışları ilə davam edib. Sonda, iştirakçılar diplom və hədiyyə ilə mükafatlandırılıb, xatirə şəkli çəkdirildi.***

Bu dəyərli tədbirin keçirilməsinə görə "İstedadları Tanıyaq və Tanıdaq" İB-nin sədri hörmətli Vüsalə xanım Qələndərliyə dərin təşəkkürümü bildirirəm. Tədbirdəki çıxışımı oxucuların diqqətinə çatdırıram:

"Çox hörmətli, adları daim bizim üçün müqəddəs olan şəhidlərimizin yaxınlarını, hörmətli və dəyərli tədbir iştirakçılarını ürəkdən salamlayıram. Mən8-ci sinif şagirdi, gəncyazar, "Kredo" qəzetinin redaksiya heyətinin üzvü və ictimai müxbiri, AJB-ninüzvü, 5 kitab müəllifi Sevindik Nəsiboğluyam. "Sizitanıyaq"layihəsinin 2-ci iştirakçısıolduğumdan qürur duyur və bunun üçünfəxredirəm. Ötən 5 ilərzində"Sizitanıyaq"layihəsinin 100-lərlə uşaq, gənc istedadlı üzvüolmuşdur.Layihə rəhbərimiz hörmətli Vüsalə xanım Qələndərli hər bir istedadlı gəncə xüsusi diqqət və qayğı yanaşmış, biz gəncləri ictimaiyyətə, ictimaiyyət nümayəndələrinə tanıtmış və dəyərli ziyalılarla görüşlərimizi təşkil etmişdir. Onu da qeyd edim ki,Vüsalə xanımın illərlə çəkdiyi zəhmət bəhrəsini vermiş, pandemiya və Vətən müharibəsi dövründə layihə üzvləri fəallıqları ilə seçilmişdirlər. Bu gün sevinirəm ki, "Sizi tanıyaq" layihəsinin bünövrəsi üzərində oxşar adlı, lakin eyni məramlı, eyni məqsəd daşıyan- "İstedadları Tanıyaq və Tanıdaq" İctimai Birliyi təsis olunmuşdur. Bu yolda əzab-əziyyətlərə qatlaşmış çox hörmətli Vüsalə xanım Qələndərlini bu münasibətlə səmimi qəlbdən təbrik edir və İctimai Birliyin fəaliyyətində uğurlar arzulayıram.

Kredo.- 2022.-23-30 mart. - S.12.